**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli, "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aparatının, Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin və Sədərək Rayon Su Monitorinq Laboratoriyasının ştat cədvəllərinin təsdiq edilməsi haqqında" 2015-ci il 10 fevral tarixli 12 nömrəli, "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı İdarəsinin yaradılması və Nazirliyin tabeliyindəki bəzi qurumların ştat cədvəllərinin təsdiq edilməsi haqqında" 2021-ci il 29 oktyabr tarixli 231 nömrəli, "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı İdarəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi və "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 avqust tarixli 76 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2021-ci il 11 noyabr tarixli 234 nömrəli, "Bir sıra təşkilatların, publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan bəzi hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında" 2022-ci il 7 fevral tarixli 29 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

"Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 sentyabr tarixli 200-VI FR nömrəli Fərmanının 8.4-cü və 8.7-ci bəndlərinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında

inzibati orqanların Təsnifatı”nın II bölməsinin 13-cü hissəsinə aşağıdakı məzmunda 13.1-ci və 13.2-ci bəndlər əlavə edilsin:

| | |
|---|---|
| “13.1. | Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti |
| 13.2. | Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı və Biomüxtəlifliyin Qorunması İdarəsi” |

2. “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aparatının, Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin və Sədərək Rayon Su Monitorinq Laboratoriyasının ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 10 fevral tarixli 12 nömrəli Qərarının 1 - 3-cü hissələri ləğv edilsin.

3. “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı İdarəsinin yaradılması və Nazirliyin tabeliyindəki bəzi qurumların ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 231 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

4. “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı İdarəsi haqqında Əsasnamə”nin təsdiq edilməsi və “Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 avqust tarixli 76 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 11 noyabr tarixli 234 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

5. “Bir sıra təşkilatların, publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan bəzi hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 7 fevral tarixli 29 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

6. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “30” yanvar 2024-cü il

№ 5